**FATMA**

Ucqar bir rayonda idim. Ezamiyyət vərəqəmə möhür vurdurmağa icraiyyə komitəsinə getmişdim. Sədrin məzəli adama oxşadığını görüb, qəsdən kabinetində yubandım. Onun söhbətindən məlum oldu ki, Fatma adlı katibəsini qonşu rayondan bir oğlan qaçırdığından, işləri tökülüb qalıb, əmrləri, təliqələr, arayışları yazan yoxdur. Müavininə tapşırıb ona təcili katibə tapsın.

- Fatmanın qaçırılması bir yana, məni başqa şey heyifsiləndirir, dedi. – O katibənin adına dilim yaman öyrənmişdi. Ağzımı açan kimi "Fatma" çağırırdım.

Aradan yarım saat ancaq keçmişdi ki, sədrin müavini orta yaşlı, qara örpəkli bir qadınla içəri girdi.

- Yoldaş Qardaşov, bu xanım arvad bizdə katibə işləməyə razılıq verib. Yoxlamışam, savadlıdır. Maşında yazmağı da yaxşı bacarır.

Sədrin eyni açıldı:

- Çox gözəl! Yaxın gəl, ay bacım!

Qadın iki addım irəli addadı.

- Əvvəl söylə görüm adın nədir?

- Adım?.. Hamısını deyim?

Qardaşovun qaşları çatıldı.

- Başa düşmürəm... Necə yəni hamısını deyim?..

Qadın yaşmağını dodaqlarının üstündən kənara çəkdi:

- Adım belədir: Seyidzəhraminabəyimsitarəsoltanxanım.

Təəccübdən sədrin gözləri kəlləsin çıxdı.

- Bah, atonnan! Mən səni hər dəfə bu uzunluqda çağırmalıyam?

- Bəli.

- Bir az ixtisar eləmək olmaz?

- Xeyr. Ona heç ərim də razılıq verməz.

Sədrin hövsələ çanağı daşdı:

- Ay anam, ay bacım, biz öhdəlik götürmüşük, plan doldurmalıyıq... Məndə o qədər vaxt hardandır səni gündə neçə kərə bir metr uzunluğunda adınla çağırım?

- Işinizə baxın... deyə Seyidzəhraminabəyimsitarəsoltanxanım ehmalca qapını açıb getdi. Hirsindən qızarıb – pörtmüş sədr acığını müavinin üstünə tökdü.

- Ə, bu nə hoqqadır çıxarırsan mənim üçün?! Rayonda ayrı arvad yoxdur? Get, günü sabah mənə başqa bir katibə tap, adı da Fatma olsun!